Cəbrayılda aparılan tikinti və quruculuq Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələrinin bir hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Cəbrayıl rayonu həm yaşayış məskənlərinin bərpası, həm də infrastrukturun yenidən qurulması istiqamətində ciddi dəyişikliklər yaşayır. Rayon 1993-cü il avqustun 23-də Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 27 il ərzində rayon erməni quldur birləşmələrinin vəhşiliyi nəticəsində tamamilə dağıdılıb, yerlə-yeksan edilib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu bölmələrinin cəbhəboyu başlatdığı əks-hücum əməliyyatlarında Cəbrayıl rayonun 1 şəhər, 4 qəsəbə və 92 kəndi düşmən işğalından azad edilib.

CƏBRAYIL:

Böyük Qayıdışın, iqtisadi dirçəlişin yeni ünvanı

Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın nəzarətinə keçməsindən sonra bu regionda geniş yenidənqurma başlanıldı. Bu prosesdə həm yerli, həm də xarici şirkətlər yaxından iştirak edir. Cəbrayıl rayonunda da yenidənqurma və bərpa operativ və sistemli şəkildə davam etdirilir. Artıq bu ildən rayonda keçmiş məcburi köçkünlər məskunlaşıb. Dekabrın 2-də Bakı şəhərinin Qaradağ rayonundan növbəti köç karvanı Cəbrayıl şəhərinə yola düşüb. Bu mərhələdə şəhərə köçürülən 129 nəfərdən ibarət 34 ailəyə mənzillərin açarları təqdim edilib. Hazırda Qarabağda və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Doğma yurdlarına qayıdan sakinlər üçün rahat və firavan yaşamağa imkan verəcək müasir infrastruktur sürətlə qurulur. Prezident İlham Əliyevin Cəbrayıl rayonuna mütəmadi səfərləri bu prosesə xüsusi diqqətin göstəricisidir. Hər səfərində təməlqoyma və açılış mərasimlərində iştirak edən dövlət başçısı görülən işlərə şəxsən nəzarət edir, dəyərli tapşırıq və tövsiyələrini verir.

Cəbrayılın Horovlu kəndi sakinlərinin yolunu gözləyən yaşayış məntəqələri sırasındadır. Bu kəndin dirçəlişi 2023-cü il mayın 4-də Prezident İlham Əliyevin təməlqoyma mərasimi ilə başladı. Kəndə birinci mərhələdə 1395 nəfərin, yəni 334 ailənin köçürülməsi üçün tikilən evlərin hörgü işləri artıq tamamlanıb. İki, üç, dörd və beş otaqdan ibarət müasir evlər sakinlər üçün hazır vəziyyətə gətirilir. Burada yalnız yaşayış evləri deyil, həm də tam təchizatlı məktəb binası, uşaq bağçası və digər iaşə obyektləri inşa edilir. Horovlunun dayanıqlı gələcəyi üçün su ehtiyatlarına da xüsusi diqqət yetirilib. Kənddə əvvəllər mövcud olmuş kəhrizlər bərpa olunur. Layihənin ümumi ərazisi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub.

Cəbrayılda məskunlaşan məktəblilərin təlim-tədris ehtiyacını qarşılamaq üçün təhsil ocaqlarının tikintisi diqqətdən kənarda qalmır. Cəbrayıl şəhərində fəaliyyət göstərən Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəb binası müasir standartlara uyğun inşa edilib. Təhsil gələcəyinə işıq saçan yeni məktəb binası azad torpaqlarda böyük qayıdışın parlaq nümunəsidir. Ərazisi 2,7 hektar olan bu möhtəşəm təhsil ocağı, müasir standartlara cavab verən hərtərəfli imkanlarla təchiz edilib. Burada 40 geniş sinif otağı, 5 inzibati otaq, həmçinin kimya, fizika, biologiya laboratoriyaları və texnologiya, informatika, 4 STEAM otağı, müasir avadanlıqlarla təchiz edilən kabinetlər fəaliyyət göstərəcək. Çağırışaqədərki hazırlıq kabineti, zəngin kitabxana, geniş akt və idman zalları, eləcə də rahat yeməkxana şagirdlərə yüksək səviyyədə təhsil və asudə vaxt keçirmək üçün ideal şərait yaradacaq. Təhsil müəssisəsinin həyətində abadlıq işləri görülüb, şagirdlərin fiziki inkişafı üçün futbol, basketbol, voleybol və açıq oyun meydançaları salınıb. Məktəb ən müasir internet, mebel-inventar və avadanlıqlarla təchiz olunub. Xatırladaq ki, bu möhtəşəm layihənin əsası "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Azad edilmiş torpaqlarda yaradılan bu təhsil mərkəzi vətənə qayıdışın qürurunu və ümidini özündə əks etdirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət Azərbaycanın qeyri-neft sektorunun inkişafına yeni nəfəs gətirir. Sənaye zonalarının - müasir iqtisadi inkişafın təkanverici mexanizmlərinin yaradılması və genişləndirilməsi bu siyasətin mərkəzində dayanır. Xüsusilə də işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası Azərbaycanın davamlı tərəqqisi üçün güclü zəmin hazırlayır. Azad edilmiş ərazilərimiz zəngin iqtisadi resursları, yeraltı sərvətləri, enerji mənbələri, tikinti materialları, termal suları, nəqliyyat-logistika imkanları və turizm potensialı ilə təkcə ölkəmiz üçün deyil, xarici investorlar üçün də böyük maraq doğurur. Qarabağla digər bölgələri birləşdirən bu ərazi, nəqliyyat və infrastruktur imkanları ilə iqtisadi dinamizmin əsas ünvanlarından biri olacaq. Cəbrayılda yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı ölkəmizin iqtisadi gücünün və inkişaf strategiyasının bariz nümunəsidir.

Cəbrayılda sənayenin dirçəlişi üçün atılan mühüm addımlardan biri də Litvanın məşhur "Dominari" şirkətinin mebel klasteri layihəsidir. Ölkəmizin iqtisadi inkişafına dəyərli töhfə verəcək bu müəssisə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. "Dominari" şirkəti sənaye parkının 10 hektar ərazisində, 5 mərhələdən ibarət genişmiqyaslı mebel klasteri qurmağı planlaşdırır. Layihənin ilkin mərhələsində döşək istehsalı üçün vacib olan paralon materiallarının istehsalı zavodunun və klasterin müxtəlif mərhələlərini parça ilə təmin edəcək toxuculuq fabrikinin tikintisi nəzərdə tutulur. Bu layihə ilə bölgənin sənaye potensialı tamamilə yeni səviyyəyə yüksələcək. Ümumi investisiya dəyəri 50 milyon manatdan çox olan bu müəssisə ilkin mərhələdə 650 nəfərə iş imkanı yaradacaq. İşçi qüvvəsinin əsasən Cəbrayıl və ətraf rayonlardan seçilməsi isə bölgə əhalisi üçün mühüm sosial-iqtisadi fayda vəd edir. Zavod ildə 6 min ton elastik poliuretan, 250 min ədəd mebel, 200 min döşək, 5,5 min kubmetr mebel komponentləri və 1 milyon üzlük istehsal etməyi hədəfləyir. İstehsal olunan məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac edilərək Azərbaycanın dünya bazarına açılan qapılarından birinə çevriləcək. Qeyd etmək lazımdır ki, Baltikyanı ölkələrdə və Şərqi Avropada uğurlu mövqeyə sahib olan "Dominari" şirkəti qısa müddət ərzində 2 min işçi heyəti və 200-dən çox korporativ müştərisi ilə beynəlxalq aləmdə tanınmış mebel istehsalçısına çevrilib. Bu uğurlu təcrübə Cəbrayılda həyata keçiriləcək layihənin də böyük nailiyyətlərə imza atacağından xəbər verir.

Sənaye parkında təməli qoyulan digər bir zavod "Karabakh Stone" MMC-yə aiddir. 2024-cü ilin iyulunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan "Karabakh Stone" MMC 3,5 hektar ərazidə fəaliyyət göstərəcək. Şirkət yol və abadlıq işləri üçün nəzərdə tutulan yüksək keyfiyyətli tamet daşlar və səki bordürlərinin istehsalı ilə məşğul olacaq. İnvestisiya həcmi 7,8 milyon manat olan bu layihə çərçivəsində 95 nəfər üçün daimi iş yeri yaradılacaq. Türkiyənin qabaqcıl texnologiyalarından istifadə edəcək müəssisə, illik istehsal gücü ilə 1 milyon 250 min kvadratmetr məhsul istehsal edəcək. Hazırlanacaq məhsullar, ilk növbədə, daxili bazarın tələbatını ödəyəcək və ölkəmizin abadlıq işlərinə yeni rəng qatacaq. Zavodun 2025-ci ildə tam fəaliyyətə başlaması nəzərdə tutulur.

Sənaye parkında gələcəkdə fəaliyyət göstərəcək "Prestij-Kimya" MMC-nin zavodu 2,15 hektar ərazisində dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək zavod inşa edilir. 214 nəfərin daimi işlə təmin ediləcəyi bu modern istehsal müəssisəsində ən son texnologiyalar tətbiq ediləcək. Türkiyə, Çin və Avropanın qabaqcıl ölkələrindən gətirilən texnologiyalar əsasında il ərzində 30 min ton müxtəlif dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsul istehsal olunacağı nəzərdə tutulur. İstehsal ediləcək məhsullar yalnız daxili bazarın tələbatını ödəməklə məhdudlaşmayacaq, həm də beynəlxalq bazarlara çıxarılacaq. Bu, yerli istehsalın keyfiyyətini dünyaya tanıtmaqla yanaşı, ölkəmizin iqtisadi gücünü artırmağa xidmət edəcək.

Musa BAĞIRLI,
"Respublika".